## Arif Buzovnalı

### Apardı

Fələk yelə verdi insan karvanın
Hərəsin bir yana çəkib apard.
Bir ömür rəngbərəng bəzədi onu
Sonda ağ əskiyə büküb apardı.

Hər insan yaşadı ölüm anını
Qəflətən Əzrayıl kəsdi yanını
Kiminin yuxuda aldı canını
Kiminin qanını töküb apardı.

Dünya "Tanrı"lığa cəhd eyləyənin
Halal deyə-deyə haram yeyənin
Sinəsinə döyüb "mən-mən" deyənin
Candəyin torpağa əkib apardı.

Allah hikmətinə kor baxanların
Xalqın sərvətinə xor baxanların
Haqqa gözlərində tor baxanların
Fələk torbasını tikib apardı.

Arif, sən də öldün başladı adət
Bir az qurdalanıb getdi camaat
Bircə çadır qaldı yasdan əlamət
Onu da sahibi söküb apardı.